

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 186 (21.847)

*3 oktyabr 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Qobustan rayonuna səfərə gəlib. Dövlətimizin başçısı Qobustan rayonuna səfəri çərçivəsində Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 55-101-ci kilometrlik hissəsini əhatə edən Cəngi-Bədəlli yolunun, Qobustanda yeni tikilmiş 100 yerlik uşaq bağçasının, rayonun əsaslı təmir edilən Təklə-Sündü-Xilmilli avtomobil yolunun açılışında iştirak edib.

Prezident İlham Əliyev oktyabrın 2-də “Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin yekunlaşması ilə bağlı təşkil olunan mərasimdə iştirak edib.

* * *

Oktyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şamaxı rayonuna səfərə gəlib. Dövlətimizin başçısı Şamaxı-Çöl Göylər-Padar avtomobil yolunun, əsaslı surətdə yenidən qurulan Pirqulu-Dəmirçi avtomobil yolunun, Şamaxı şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib.

Prezident İlham Əliyev oktyabrın 2-də Şamaxı rayonuna səfəri çərçivəsində “Az-Granata” MMC-yə məxsus üzüm bağları və Şamaxı Safari Parkı ilə tanış olub.



## Naxçıvan şəhərində 2 nömrəli Təqaüdçülər Klubunun yeni binası istifadəyə verilib





Muxtar respublikada sakinlərin asudə vaxtının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Yeni parkların salınması, xidmət sahələrinin fəaliyyətə başlaması, yaşayış məntəqələrində mədəniyyət evləri və klublar üçün yeni binaların istifadəyə verilməsi, bu mənada mühüm əhəmiyyətə malikdir.

Sentyabrın 30-da – Beynəlxalq Ahıllar Günü ərəfəsində Naxçıvan şəhərində 2 nömrəli Təqaüdçülər Klubu üçün yeni bina istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Ali Məclisin Sədri yeni binanın istifadəyə verilməsi münasibətilə təqaüdçüləri təbrik edərək demişdir: Təqaüdçülər Klubu 1974-cü ildən fəaliyyət göstərir. Ötən dövrdə klub Naxçıvan şəhərindən olan təqaüdçülərin asudə vaxtlarının səmərəli təşkili sahəsində səmərəli fəaliyyət göstərmişdir. Ona görə də klubun yerləşdiyi bina yenidən qurulmuş, müasir tələblərə uyğun şərait yaradılmış, oxu və stolüstü oyun zalları istifadəyə verilmişdir.

Ali Məclisin Sədri demişdir: Ölkəmizdə bütün kateqoriyadan olan insanların fəaliyyəti və rahatlığı üçün lazımi şərait yaradılır. Şagirdlərin yaxşı təhsil alması üçün müasir məktəblər, həkimlərin səmərəli fəaliyyəti üçün yeni xəstəxanalar, eləcə də digər sosial obyektlər tikilərək istifadəyə verilir, insanlara hərtərəfli xidmət göstərilir. Bu gün istifadəyə verilən 2 nömrəli Təqaüdçülər Klubunda yaradılan şərait də müxtəlif yarışların keçirilməsinə, mütaliə günlərinin və kitab müzakirələrinin təşkilinə imkan verəcəkdir. Yaşlı insanlar, təqaüdçülər ölkəmizin sərvətidir. Onların keçdiyi həyat yolu gənc nəsil üçün nümunədir. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, ənənələrimiz yaşadılmalı və gənc nəslə öyrədilməlidir.



Ali Məclisin Sədri klubun səmərəli fəaliyyət göstərəcəyinə əminliyini bildirmiş, bir daha təqaüdçüləri təbrik etmişdir.

Naxçıvan şəhər sakini Qadir Həsənov təqaüdçülər adından minnətdarlıq edərək demişdir: Bu gün muxtar respublikada bütün təbəqədən olan insanlar diqqət mərkəzindədir. Ahıl vətəndaşlara, təqaüdçülərə göstərilən qayğı, onların sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlər minnətdarlıqla qarşılanır. Aparılan quruculuq işləri nəticəsində yeni parklar, istirahət guşələri istifadəyə verilir. Təqaüdçülər üçün nəzərdə tutulan bu klub əvvəllər lazımi şəraiti olmayan binada yerləşirdi. Lakin bu gün istifadəyə verilən yeni binada asudə vaxtın səmərəli təşkili üçün bütün imkanlar var. Bu da dövlətimizin öz vətəndaşına göstərdiyi qayğının daha bir ifadəsidir.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində fəaliyyət göstərən klub təqaüdçülərin asudə vaxtlarının səmərəli təşkili, stolüstü oyunların və yarışların keçirilməsi, qəzet və jurnalların oxunmasının təşkili, kitab mütaliəsinin təmin olunması sahəsində fəaliyyət göstərir, əlamətdar günlərdə müxtəlif tədbirlər keçirilir. Bu işlərin uğurla həyata keçirilməsi üçün binada lazımi şərait yaradılmış, iş otağı, stolüstü oyun zalı, oxu zalı və bufet istifadəyə verilmişdir.

Ali Məclisin Sədri oxu zalının mütəmadi olaraq yeni ədəbiyyatlarla zənginləşdirilməsi barədə tapşırıq vermişdir.

## Naxçıvan şəhərindəki çoxmənzilli yaşayış binaları yenidən qurulur

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasında sosial islahatların əhatə dairəsini xeyli genişləndirmişdir. Əhalinin məşğulluğunun və rahat yaşayışının təmin olunması, mənzil-məişət şəraitinin yaxşılaşdırılması muxtar respublikada həyata keçirilən sosial siyasətin və aparılan quruculuq işlərinin əsasını təşkil edir. Hər il Naxçıvan şəhərində yeni ictimai yaşayış binaları tikilərək istifadəyə verilir, mövcud çoxmənzilli yaşayış binaları yenidən qurulur. Bu tədbirlərin davamı olaraq Naxçıvan şəhərinin İstiqlal küçəsindəki 79 nömrəli yaşayış binasında da yenidənqurma işləri aparılmışdır.

Sentyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada görülən işlərlə maraqlanmış, sakinlərlə görüşmüşdür.

Ali Məclisin Sədri Naxçıvan şəhərində yeni abad məhəllənin yaranması və yaşayış binasının yenidən qurulması münasibətilə sakinləri təbrik edərək demişdir: Naxçıvan şəhəri ilə yanaşı muxtar respublikanın digər bölgələrində də geniş abadlıq-quruculuq işləri aparılır, yeni sosial obyektlər tikilir. Bu gün muxtar respublikada sabitlik, enerji və ərzaq təhlükəsizliyi təmin olunub. Muxtar respublikanın hərtərəfli inkişafı isə insanların həyat səviyyəsini yaxşılaşdırır, yeni iş yerləri açılır. Vaxtilə Naxçıvan şəhərindəki binalarda lazımi kommunal məişət şəraiti yox idi, elektrik enerjisi fasilələrlə verilirdi, içməli su təminatı ödənilmirdi. Lakin bu gün mənzillərə 24 saat dayanıqlı elektrik enerjisi, təbii qaz və içməli su verilir. Yenidən qurulan bu yaşayış binasında da sakinlərin rahat yaşayışı üçün hərtərəfli şərait yaradılıb. Naxçıvan şəhərində quruculuq işləri bundan sonra da davam etdiriləcək, digər yaşayış binalarında da yenidənqurma işləri aparılacaqdır. Sakinlər də tikilənləri, qurulanları qorumalı, yaşadıqları binanı, məhəlləni təmiz saxlamalıdırlar. Çünki həyata keçirilən bu tədbirlər ölkəmizin inkişafına, insanların rahat yaşayışına hesablanıb.

Bina sakini, ziyalı Zəhmət Şahverdiyev minnətdarlıq edərək demişdir: Naxçıvanın

*Ardı 2-ci səhifədə*





çətin günlərini yaxşı xatırlayırıq. Vaxtilə mənzillərə gün ərzində 2 saat elektrik enerjisi verilirdi, içməli su, təbii qaz təminatı yox idi. İqtisadiyyatın və sosial həyatın bütün sahələrində geriləmə müşahidə olunurdu. Lakin ulu öndər Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində Naxçıvan Muxtar Respublikasında kompleks inkişafa nail olunub. Muxtar respublikanın kəndində də, şəhərində də geniş quruculuq işləri aparılır. Naxçıvan müasir üslubda yenidən qurulur, sakinlərin rahat yaşayışı üçün bütün tədbirlər görülür. Muxtar respublikada görülən bu işləri vaxtilə ümummilli liderimiz Heydər Əliyevin, bu gün isə ölkə Prezidenti cənab İlham Əliyevin yüksək qiymətləndirməsi sakinləri daha da qürurlandırır, onların qurub-yaratmaq əzmini artırır.

Bina ilə tanışlıq zamanı məlumat verilmişdir ki, 5 mərtəbəli yaşayış binasında 45 mənzil vardır. Yenidənqurma işləri zamanı binanın mühəndis-kommunikasiya sistemləri yenilənmiş, fasadı, dam örtüyü, qapı və pəncərələri dəyişdirilmiş, dəhlizlər və zirzəmi qatı təmir olunmuşdur. Zirzəmi qatında xidmət sahələri üçün yerlər ayrılmışdır. Binanın həyətində də abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

***1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevi Prezident seçməklə dövlət müstəqilliyimizin qorunub saxlanılmasına, sabitliyə və davamlı inkişafa səs vermişdir. Məhz bu tarixdən Azərbaycanda özbaşınalığa, anarxiyaya, xaosa son qoyulmuş, ictimai-siyasi sabitlik bərpa edilmiş, ölkəmizin müstəqilliyi möhkəmləndirilmişdir.***

# Azərbaycan xalqının müdrik seçimi

Ötən əsrin 90-cı illərinin əvvəllərində dövlət müstəqilliyimizin bərpasından sonra ölkədə hakimiyyətsizlik, özbaşınalıq hökm sürürdü. Müstəqilliyimizin qorunub saxlanılması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin təmin olunması və nəhayət, Azərbaycanın parçalanmaqdan xilası həllini gözləyən ən mühüm vəzifələr idi. Daxili və xarici siyasətdəki uğursuzluqlar nəticəsində ölkənin müxtəlif bölgələrində separatçı qüvvələr baş qaldırmış, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı.

Həmin dövrdə ulu öndər Heydər Əliyev Naxçıvanda Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizəsinə rəhbərlik edir, burada müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində tarixi addımlar atırdı. Belə ki, 1990-cı il iyulun 22-də ümummilli liderimizin Naxçıvana gəlişi xalqın böyük sevincinə səbəb olmuşdu. Onun möhtəşəm qayıdışını doğulub boya-başa çatdığı Naxçıvan torpağı, əhali hədsiz sevgi, məhəbbət və inamla qarşılamışdır. Naxçıvanlılar bütün maneələrə baxmayaraq, qısa müddət ərzində ulu öndəri özlərinə rəhbər seçmişdilər. Görkəmli dövlət xadimi Heydər Əliyev isə Naxçıvanı təhlükələrdən qorumuş, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim Azərbaycan torpağını dirçəltməyə nail olmuşdur.

Dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından “sovet sosialist” sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilmişdir. Bu dövrdə görkəmli dövlət xadiminin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də qədim Naxçıvan torpağını erməni təcavüzündən xilas etməsidir. Naxçıvanda dövlətçiliyin, müstəqilliyin qorunub saxlanılması sahəsində tədbirlərin həyata keçirildiyi dövrdə bunun əksinə olaraq ölkəmizin digər bölgələri faktiki vətəndaş müharibəsinin astanasında idi. Artıq mövcud hakimiyyətsizlikdən, özbaşınalıqdan cana doymuş xalq ölkənin xilasını dahi rəhbər Heydər Əliyevdə görür, ümidlərini ona bağlayırdı. Azərbaycanı müstəqilliyə hazırlayan ulu öndərimiz bu yolda xalqın birliyini əsas götürərək deyirdi: ***“Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur”.***

15 iyun 1993-cü ildə Vətənin ağır günündə xalqın iradəsi ilə böyük siyasətə qayıdan ulu öndər ölkəmizi düşdüyü çətin vəziyyətdən xilas etdi. Ümummilli lider zəngin dövlətçilik təcrübəsindən yararlanaraq uçuruma yuvarlanan, böhranlar içində çabalayan, gələcəyini heç kimin aydın təsəvvür etmədiyi bir ölkənin dünya birliyinin müstəqil subyekti olmaq hüququnu özünə qaytardı. Dahi rəhbərimizin qətiyyəti sayəsində Azərbaycan dinamik inkişaf yoluna çıxdı. Ölkə məhv olmaqdan xilas edildi, müstəqilliyimiz qorundu, iqtisadiyyat gücləndirildi, torpaqlarımızın işğalının qarşısı alındı. 1991-ci il oktyabrın 18-dən 1993-cü il iyunun 15-nə qədər yaşadığımız ağır və məhrumiyyətlə dolu günlərin arxada qalacağına böyük inam və ümid yarandı. Məhz bu inam və ümidlərlə Azərbaycan xalqı oktyabrın 3-də öz qətiyyətli sözünü deməyi bacardı. Həmin seçkilər, sözün həqiqi mənasında, Azərbaycan xalqının qarşısında duran ağır sınaq idi. Xalq bu sınaqdan da üzüağ çıxdı. Xalqın əzm və iradəsinin ifadəsi kimi yaddaşlara yazılan bu seçkidə ulu öndər Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu həm də Azərbaycan xalqının öz tarixində ədalətli, şəffaf və demokratik seçki keçirmək ənənəsinin təməlinin qoyulduğu gün kimi əlamətdardır.

Prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndərimiz 1993-cü ilin 10 oktyabrında dövlətə və xalqa sədaqət andı içərək demişdir: ***“Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm”.***

Bəli, bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə qazandığı istənilən uğur barədə söz açan xarici ekspertlər, ilk növbədə, ulu öndər Heydər Əliyevin adını çəkir, bugünkü Azərbaycanın məhz onun əsəri olduğunu söyləyirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman, mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuş, mühüm siyasi və iqtisadi islahatlara başlanmışdır”.***

Ulu öndərin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi və siyasi tədbirlərin nəticəsi kimi, bir tərəfdən milli ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, atəşkəs əldə edildi, torpaqlarımızın işğalının qarşısı alındı, Azərbaycanın haqq səsi dünyaya çatdırıldı. Ölkə daxilində yaranmış sabitliyin, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inamın nəticəsi olaraq 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi” imzalandı. Bununla da, ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının tərkib hissəsi olan neft strategiyasının əsası qoyuldu.

Dahi şəxsiyyət Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi. Xalqımızın böyük oğlunun uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Bununla da, ölkəmizdə hüquqi dövlət quruculuğu prosesinə başlanıldı, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə xidmət edən qanunvericilik bazası yaradıldı, demokratik cəmiyyət formalaşdırıldı.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən əsas işlərdən biri də, qeyd etdiyimiz kimi, ölkənin dünya birliyinə inteqrasiyasının təmin olunması idi. Ulu öndər Heydər Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində beynəlxalq təşkilatlarla bərabərhüquqlu əməkdaşlığın əsası qoyuldu. Yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan özünün coğrafi mövqeyindən, təbii ehtiyatlarından, iqtisadi potensialından istifadə əsasında bir çox dövlətlərlə və beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq edərək Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrinin təşəbbüsçüsünə və əsas icraçısına çevrildi. Bu ilin sentyabrında “Azəri”, “Çıraq” və “Günəşli” yataqları üzrə yeni sazişin imzalanması isə Azərbaycan iqtisadiyyatının gələcək inkişafının qarantı olaraq, yaxın tariximizə önəmli hadisə kimi həkk olundu.

Xalqımızın rifahına, təhlükəsizliyinə və gələcək inkişafına töhfələrini verən Heydər Əliyev siyasəti Azərbaycanın regionda müstəqil siyasət yürüdən lider dövlət kimi möhkəmlənməsinin əsasını qoymuşdur. Əsrlər boyu azadlıq uğrunda mübarizə aparmış Azərbaycan xalqı məhz ulu öndər Heydər Əliyevin və onun siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin fəaliyyəti sayəsində müasir beynəlxalq münasibətlər sistemində nüfuzlu söz sahibinə çevrilmişdir. Dünya ölkələrinin iqtisadi və maliyyə böhranından əziyyət çəkdiyi bir dövrdə yüksələn xətlə inkişaf edən müstəqil Azərbaycan Respublikası ulu öndərimizin əzmkarlıq, uzaqgörənlik və əsl vətəndaşlıq mövqeyinin nəticəsi kimi xalqımızın fəxr mənbəyinə çevrilmişdir.

Görkəmli dövlət xadiminin inkişaf strategiyasının reallaşdırılması Naxçıvanı da çiçəklənən diyara çevirmişdir. Naxçıvan Muxtar Respublikası hazırda ulu öndərimizin adına və arzularına layiq şəkildə inkişaf etdirilir, yenidən qurulur. Son illər muxtar respublikanın keçdiyi inkişaf yolu dahi şəxsiyyət Heydər Əliyevin ideyalarına sədaqətin təcəssümüdür. Naxçıvan Muxtar Respublikası inkişaf dinamikasına görə öncül mövqedədir. Bu gün muxtar respublikada inkişafdan kənarda qalan sahə yoxdur. Bütün infrastruktur yeniləşdirilmiş, xüsusi zövqlə, diqqət və qayğı ilə yenidən qurulmuş, müasir tələblər səviyyəsinə çatdırılmışdır. Muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri, eləcə də digər şəhər, qəsəbə və kəndlərimiz yeniləşmə və inkişaf dövrünü yaşayır. Hərtərəfli və dinamik inkişafın real təzahürləri hər addımda göz oxşayır.

*Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqımızı həqiqi müstəqilliyə, Azərbaycan dövlətini isə inkişaf və tərəqqiyə qovuşdurdu. Ötən illər bir daha təsdiq etdi ki, Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin yeganə təminatı ümummilli lider Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“1993-cü ilə qədər Azərbaycanda hakimiyyətsizlik, siyasi hərc-mərclik, vətəndaş qarşıdurması hökm sürürdüsə, həmin tarixdən sonrakı dövr ölkəmizdə dövlət müstəqilliyinin möhkəmlənməsi ilə xarakterizə edilir. 1993-cü ildən sonra Azərbaycanın inkişafı göz qabağındadır. Əgər o vaxt Azərbaycanda xaos hökm sürürdüsə, bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idisə, bu gün Azərbaycanda əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdısa, bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycanda total böhran hökm sürürdüsə, bu gün Azərbaycan qüdrətli ölkəyə çevrilmişdir”.***

**“Şərq qapısı”**

*Məmmədhüseyn Təhmasib – 110*

## Görkəmli folklorşünas-alim astral dastanlar haqqında



***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın dünya miqyaslı şəxsiyyətləri, elm, ədəbiyyat və mədəniyyət xadimləri tarixən ölkənin elm sahəsinin inkişafına dəyərli töhfələri ilə seçilmişdir. Azərbaycan folklorunun yorulmaz tədqiqatçısı, "folklorumuzun ilk doktoru", folklor motivlərindən məharətlə istifadə edən dramaturq, ssenarist, tərcüməçi, uzun illər ali məktəblərimizdə folklor fənnini tədris edən pedaqoq-alim Məmmədhüseyn Təhmasib (1907-1982) qədim tarixi diyar olan Naxçıvanın Azərbaycan elminə bəxş etdiyi elm xadimlərindən biridir. Folklor motivləri əsasında qələmə aldığı "Nəbi" kinossenarisi, "Çiçəkli dağ" nağıl-pyesi, bir neçə dram əsəri, "Nizami əsərlərinin el variantları", 5 cildlik "Azərbaycan dastanları", 5 cildlik "Azərbaycan nağılları", "Koroğlu" dastanı", "Molla Nəsrəddin lətifələri", "Ağ atlı oğlan" və sair əsərlər böyük alimin elmi, tərtibçilik, ədəbi və mədəni fəaliyyətinin çox geniş diapazonundan xəbər verir.***

Ali məktəblərimizdə şifahi ədəbiyyatı tədrisə ilk dəfə M.Təhmasib başlamış, Azərbaycan folkloru kursunu bir fənn kimi o yaratmışdır. Onun "Azərbaycan xalq dastanları (orta əsrlər)" mövzusunda doktorluq dissertasiyası 1972-ci ildə "Elm" nəşriyyatı tərəfindən Əməkdar elm xadimi, akademik Həmid Araslının redaktorluğu ilə monoqrafiya şəklində nəşr olunmuşdur. Bu əsər nəinki Azərbaycan folklorşünaslıq elminin, hətta bütövlükdə, türkologiya elminin uğuru kimi dəyərləndirilmişdir. Çünki alim "Aşıq", "Ozan", "Dastan", "Qəhrəmanlıq dastanları", "Məhəbbət dastanları", "Məcazi məhəbbətə həsr edilmiş dastanlar", "Ailə-əxlaq dastanları" haqqındakı qənaətlərini ümumtürk kontekstindən çıxış edərək təqdim etmiş, dastanların təkcə Azərbaycan yox, bir çox türk xalqlarına məxsus variantları ilə müqayisə və qarşılaşdırmalar aparmış, son məqamda isə, məsələn, "Koroğlu" dastanının və digər əsərlərin daha çox Azərbaycana məxsusluğuna diqqəti cəlb etmişdir.

Dünyəvi, real məhəbbətə həsr olunmuş pak, təmiz, insani hisslərin yüksək bədii şəkildə ifadəsi olan əsl məhəbbət dastanları ilə yanaşı, dəyərli alim məcazi sevgidən, simvolik məhəbbətdən bəhs edən dastanları da fərqləndirməyi məqsədəuyğun hesab etmişdir. "Ümumiyyətlə, astral əsər nədir?" – sualına M.Təhmasibin verdiyi əhatəli və tam aydın cavab diqqəti cəlb edir: "Astral əsər təbiət qüvvələrinin, təbiətdə baş verən hadisələrin, xüsusilə səma cisimlərinin, səyyarə və bürclərin insan şəklində təsəvvürünə əsaslanır. Belə əsərlərdə bəzən tam il daxilində, bəzən ayrı-ayrı fəsillərdə, bəzən isə bir gecə-gündüzə ulduzlar aləmində baş verən hadisələr bədii şəkildə təsvir olunur".

XIV əsrdə yazılmış astral əsərlərin ən yüksək zirvəsi azərbaycanlı şair, alim, astronom və riyaziyyatçı Əssar Təbrizinin (1325-1390) "Mehr və Müştəri" (1376) əsəri sayılır. Bu əsərin ideya istiqaməti, elmi və bədii dəyəri haqqında əvvəlki tədqiqatları qeyd etməklə bərabər, dəyərli folklorşünas onu astral əsər kimi səciyyələndirmək üçün əvvəlcə qısa süjetini vermiş və beləliklə də bu süjetin şifahi xalq ədəbiyyatımızdakı "Şəms-Qəmər" adlı nağılla və "Mehr-Mah" adlı dastanla sıx əlaqəli olduğu və yaxından səsləşdiyi qənaətinə gəlmişdir.

"Mehr-Mah" dastanının çox mürəkkəb süjetilə oxucuları tanış edən M.Təhmasib dastanın müasir xalq dastanları ilə oxşar və fərqli cəhətlərindən danışarkən çox mühüm bir xüsusiyyəti qeyd edir. Bu, dastanın nəzm hissələrində qoşma, gəraylı, xalq mahnılarından başqa, qəzəl, müxəmməs və rübailərdən də istifadə edilməsi ilə əlaqədardır. Bildiyimiz kimi, bu, xalq dastanlarına aid olan bir xüsusiyyət deyil. Dəyərli alim çox doğru olaraq bu qənaətə gəlmişdir ki, dastan eyniadlı yazılı ədəbiyyat əsərinin folklorlaşmış variantıdır. Dastanın Xavər şah (Şərq), onun oğlu Mehr (Günəş), Mah (Ay), Ütarid vəzir və onun qızı (Zöhrə), Bəhram (Mars), Müştəri (Bərcis) planetlər və səma cisimləri ilə bağlı surətlərinə və əsərdə "bir il müddətində təbiətdə baş verən hadisələr simvolik şəkildə təsvir olunduğuna görə" bu dastanın astral əsər olması nəticəsinə gəlinmişdir.

Folklorşünas digər astral dastanlar kimi, "Gül və Sənavər", "Gül və Sineyvaz", "Gül və Suman" kimi nağıl variantları olan "Şahzadə Sənubər" və "Mahmehri ilə Xurşid" dastanlarının süjetlərini müxtəsər şəkildə xatırlatmışdır. Burada əsas məqsədi isə astral süjetlərin Azərbaycan yazılı ədəbiyyatında, eləcə də şifahi xalq ədəbiyyatımızda mövcudluğunu və xüsusilə dastanlarımız üçün təsadüfi hal olmadığını nəzərə çatdırmaqdır.

M.Təhmasib, xüsusilə "Tahir-Zöhrə" dastanının astral əsər olduğunu sübuta yetirmək üçün daha çox bu dastandan bəhs etmişdir. Folklorşünas-alim uzun illər boyu aparılan araşdırmaların nəticələri olaraq aşağıdakı dəlilləri irəli sürür:

1. Dastanda şər qüvvə kimi təsvir edilmiş Hatəm Sultanın hökmdarı olduğu Qaraman heç bir dövlətlə və ya ərazi ilə əlaqədar deyil, bu, tamamilə simvolik məna daşıyan bir addır. Astral mənada qaranlıq "gecə səması" deməkdir.

2. Dastanın əsas qəhrəmanlarından biri olan Zöhrə isə onun qızıdır.

Tahirlə eyni saatda anadan olan Zöhrə atası Tahiri sürgün etdikdən sonra xüsusi bir imarətdə göz dustağı kimi saxlanılmış, Hatəm Sultan öldükdən sonra azadlığa çıxmışdır. Aydındır ki, bu axşamdan parlaq bir ulduz kimi görünən, sonra yoxa çıxan, bir də ancaq səhərə yaxın görünən Zöhrə ulduzunun antropomorfizmidir. Bu ulduz Şərqdə su, eşq, xoşbəxtlik və gözəllik ilahəsi Nahid (Anahit) və ya çoban kökəbi, çoban ulduzu da adlandırılır.

3. Dastanın digər əsas qəhrəmanı Tahir isə görkəmli alimin araşdırmalarının nəticəsində aydın olmuşdur ki, Əttar ulduzu, Tair zirvəsi, Tir və ya Müştəriyə çox bənzəsə də, bunların heç biri ilə əlaqəsi yoxdur: "... bizim Tahir-Tair ayın adlarından biridir". Tahir bir sıra əlamətlərinə görə ayı təcəssüm etdirir. O, Günəşin qaranlıq gecəni məhv etməsi nəticəsində Zöhrə ilə qovuşur.

Dastanın digər versiyaları, özbək, türkmən, tatar və digər variantları ilə müqayisəli təhlillər aparılmış, fərqli cəhətlər müəyyənləşdirilmiş, özbək variantının XVI əsrdə yaşamış Səyyadi adlı bir şair tərəfindən yazılmış məsnəvi olduğu qənaətinə gəlinmişdir. M.Təhmasib bu variantda astral əlamətlərin çox zəif və sönük, tatar variantının isə daha qədim və astral köklərlə zəngin olduğunu diqqət mərkəzinə çəkmişdir.

Folklorşünas-alimin xüsusi vurğuladığı digər bir məqam isə "Tahir-Zöhrə" dastanının Əssar Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli və digər orta əsrlər Azərbaycan ədəbiyyatının klassiklərinə məlum olması faktıdır. Bu da dastanın yaranma tarixinin düşünüldüyündən daha qədim dövrə aid olduğu qənaətinə gəlməyə əsas verir.

Qeyd etdiyimiz bu dastanların müxtəlif variantları üzərində dərin araşdırmalar aparan M.Təhmasib tarixi salnamələrdə, Azərbaycan və Şərq klassiklərinin əsərlərində, müxtəlif məqsədlərlə tərtib olunmuş ayrı-ayrı cünglərdə, Şərq mifologiyasında, "Avesta"da, şərqşünas alimlərin fikirlərində rast gəldiyi məlumatları qarşılaşdırmışdır. Hətta yeri gəldikcə Yunanıstan, İran, Misir, Qafqaz və Orta Asiya dastanları ilə müqayisə etmiş, yekun elmi nəticələr ortaya qoymuşdur. Məhz bu baxımdan M.Təhmasibin çox zəngin və qədim tarixə malik olan dastanlarımızın tədqiqi sahəsindəki xidmətləri təqdirəlayiqdir.

Professor M.Təhmasib adlarını qeyd etdiyimiz fundamental əsərlər haqqında yazdığı məqalələri ilə Azərbaycanda folklorşünaslıq elminin yeni bir mərhələsinin əsasını qoymuş, məktəb formalaşdırmışdır. Bu məktəbin davamçıları folklorun istənilən janrının tədqiqində ustadlarının obyektiv nəticələrindən də bəhrələnmişlər. Onu da qeyd edək ki, M.Təhmasib təkcə dastanlarımızın tədqiqinə deyil, həm də toplanması işinə də xüsusi əhəmiyyət vermişdir. 1938-1965-ci illər ərzində o, müxtəlif aşıqlardan "Abbas-Gülgəz", "Alıxan-Pəri", "Qaçaq Kərəm", "Qurbani-Pəri", "Ordubadlı Kərim", "Gül-Sənubər", "Cəlali Kürdoğlu", "Tahir-Zöhrə" və sair dastanlar da daxil olmaqla, 100-dən çox dastan toplamışdır.

Həyatını folklor nümunələrinin toplanması və tədqiqinə həsr etmiş görkəmli alim Azərbaycan xalqının tarixini, həyat tərzini, mənəvi dəyərlərini ifadə edən müxtəlif regionlara səpələnmiş folklor nümunələrini toplayıb ümumiləşdirməklə yanaşı, xalq yaradıcılığının mənalar aləmini, bədii xüsusiyyətlərini də böyük ustalıqla açmışdır. Onun Aşıq Şəmşir, Aşıq Ələsgər və digər el sənətkarları, İmadəddin Nəsimi, Yusif Vəzir Çəmənzəminli, Cəfər Cabbarlı kimi tanınmış Azərbaycan ədiblərinin folklorla əlaqəsi haqqındakı araşdırmaları bu gün də elmi dəyərini qoruyub saxlamaqdadır.

**Aygün ORUCOVA**
*filologiya üzrə fəlsəfə doktoru*

***Son bir neçə ildə olduğu kimi, bu il də Naxçıvan şəhərində, o cümlədən muxtar respublikamızın rayonlarında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və Dini Qurumlarla İş üzrə İdarəsinin təşkilatçılığı ilə Aşura günü qana ehtiyacı olan xəstələrə yardım məqsədilə könüllü qanvermə aksiyaları keçirilib.***

## Aşura günü Naxçıvanda qanvermə aksiyaları keçirilib





Oktyabrın 1-də keçirilən Aşura mərasimlərində Naxçıvan şəhərində 3 məsciddə, Muxtar Respublika Xəstəxanasında 71 nəfərdən 35, Doğum Mərkəzində 70 nəfərdən 21, Diaqnostika-Müalicə Mərkəzində 59 nəfərdən 29,5 litr qan götürülüb. Rayon mərkəzi xəstəxanaları üzrə Şərur rayonunda 55 nəfərdən 20, Sədərək rayonunda 28 nəfərdən 14, Kəngərli rayonunda 99 nəfərdən 40, Şahbuz rayonunda 26 nəfərdən 9, Culfa rayonunda 68 nəfərdən 22, Ordubad rayonunda 31 nəfərdən 13, Babək rayonunda isə 38 nəfərdən 11 litr qan götürülüb. Bütövlükdə, muxtar respublika üzrə 545 nəfərdən 217,5 litr qan tədarük olunub.

Məscidlərdə qanvermə aksiyaları axşam saatlarınadək davam edib, dindarlar sivil qaydada, könüllü olaraq qan veriblər. Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Bir neçə saat davam edən aksiyada donorlardan götürülən qanın qrupları müəyyənləşdirilərək birli və ikili torbalarda qan bankına təhvil verilib. Beləliklə, qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb.

Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır. Tədarük olunan qan və qandan hazırlanmış preparatlardan hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan bütün digər xəstələrin müalicəsində istifadə olunacaq.

Aşura mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından halva ehsanı paylanılıb.

Keçirilən mərasimlərdə "Qurani-Kərim"dən ayələr oxunub, şəhidlərimizin ruhuna dualar edilib.

**"Şərq qapısı"**

## Ahıllar Evinin sakinləri ilə görüş olub

*Beynəlxalq Ahıllar Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təşkil edilən silsilə tədbirlərin davamı olaraq Şahbuz şəhərindəki Ahıllar Evinin sakinləri ilə görüş keçirilib.*

Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək qeyd edib ki, muxtar respublikada dinamik inkişafın təmin edilməsi, ahıl vətəndaşlara göstərilən xidmətlərin həcminin ilbəil artmasına şərait yaradıb. Ahıl insanların sağlamlıqlarının qorunmasına, yaşayış səviyyəsinin yüksəlməsinə xüsusi önəm verilir, onların yubileyləri, uzunömürlü ailələrin qızıl və brilyant toyları qeyd olunur.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayev çıxışında bildirib ki, rayonda yaşayan ahılların sosial vəziyyətlərinin yaxşılaşması, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Ahıllar Evi sakinlərinin rahat yaşaması üçün hərtərəfli şərait yaradılıb. Onlara mütəmadi olaraq tibbi və sosial reabilitasiya xidməti göstərilir.

Tədbirin bədii hissəsində sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu sakinlər qarşısında konsert proqramı ilə çıxış edib.

Sonda sakinlərə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, Beynəlxalq Ahıllar Günü münasibətilə sosial xidmət göstərilən tənha ahıllardan bir qisminin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə ziyarəti təşkil olunub, muxtar respublikanın ən uzunömürlü sakini ilə görüş keçirilib. Eyni zamanda Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən sosial xidmət göstərilən tənha ahılların iştirakı ilə tədbirlər təşkil edilib. Tədbirlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq rayon İcra Hakimiyyətinin nümayəndələri çıxış edərək ahılların sosial müdafiəsinin təmin olunması məqsədilə görülən işlərdən danışıblar.

Tədbirlərdə, ümumilikdə, 234 ahıla bayram sovqatı təqdim olunub.

Ahıllar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

## Beynəlxalq Həkimlər Günü qeyd edilib



*Oktyabrın 2-də Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında Beynəlxalq Həkimlər Gününə həsr olunmuş tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva bildirib ki, dünyanın bir çox ölkələrində hər il oktyabr ayının birinci bazar ertəsi Beynəlxalq Həkimlər Günü kimi qeyd olunur. Bu günün qeyd olunmasının təşəbbüskarları Dünya Səhiyyə Təşkilatı və "Sərhədsiz həkimlər" beynəlxalq tibbi humanitar təşkilatıdır. Qeyri-hökumət təşkilatı olan "Sərhədsiz həkimlər"in əməkdaşları dünyanın bəzi bölgələrində milli və dini mənsubiyyətinə fərq qoymadan insanlara tibbi yardım edir. Həmçinin könüllülər təşkilatı QİÇS və narkomaniya ilə mübarizəyə yönəlmiş profilaktik və maarifləndirmə işi ilə məşğuldur.

Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov "Naxçıvan Muxtar Respublikası səhiyyəsinin dünəni və bu günü", Naxçıvan Muxtar Respublika Xəstəxanası Təcili, təxirəsalınmaz planlı tibbi yardım şöbəsinin müdiri Pəri Əliyeva "Səhiyyə müəssisələri əhalinin sağlamlığının etibarlı təminatçısıdır" mövzularında məruzələr ediblər.

Tədbirdə vurğulanıb ki, muxtar respublikanın tibb işçiləri bundan sonra da insanların sağlamlığının etibarlı təminatçısı olacaq, yaradılan şəraitdən istifadə edərək səhiyyənin inkişafına öz töhfələrini verəcəklər.

Əmək fəaliyyətində xidmət və uğurlarına görə 6 tibb işçisinə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin fəxri fərmanları təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

*Parklarda, istirahət məkanlarında və ya azyaşlı uşaqlar olan ailələrdə "qaçma", "nadinclik etmə", "yavaş ol, yıxılacaqsan" kimi ifadələri gündəlik həyatımızda çox eşidirik. Əksər valideynlər övladlarının bu hərəkətlərini ərköyünlüklə əlaqələndirir, bu xüsusiyyətlərə görə onları "nadinc uşaq" adlandırırlar. Bəs bu, həqiqətən belədirmi? Bəlkə, övladınızın hiperaktiv olması ilə əlaqədardır?*

*Sağlam həyat*

## Uşağınız aktivdir, yoxsa hiperaktiv?

Əvvəlcə tibdə "hiperdinamik sindromu" adlandırılan hiperaktivlik barədə mütəxəssis fikirlərini öyrənək. Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin baş həkimi Rəşadət Nabatov deyir ki, hiperdinamik sindrom uşaqlarda 7 yaşına qədər müşahidə olunan hərəki oyanıqlıq, diqqətin yayınması ilə müşayiət olunan pozuntudur. Səbəbi əvvəllər, əsasən, baş beyində olan xəstəliklərlə – travma, neyroinfeksiya və digər xəstəliklərlə əlaqələndirilib. Son zamanlar isə əsas səbəb kimi genetik amillər göstərilir.

Hiperaktivliyin əsas əlamətləri diqqətin yayınması, bir yerdə qərar tutmamaq, tələskənlik, impulsivlikdir. Adətən, bu, məktəbəqədər dövrdə, yəni 3-5 yaşlarda aşkar olunur. Lakin əsas əlamətlər məktəb dövründə daha çox diqqəti cəlb edir. Belə ki, uşaq dərslərdə əziyyət çəkir, onun qavrama qabiliyyəti aşağı səviyyədə olur. Belə uşaqlar parta arxasında düzgün oturmur, tez-tez yerini dəyişir, cüzi məhdudiyyətin tətbiqi onlarda kəskin narahatlıq yaradır. Uşaqlar bir tərəfdən qıcıqlı, emosional dəyişkən olur, bununla yanaşı, tez inciyib-küsürlər. Əqli inkişafın normal həddə olmasına baxmayaraq, çoxhərəkətlilik və diqqət cəmlənməsinin pozulması intellektual fəaliyyətdə məhdudiyyət yaradır. Onların intellektual qabiliyyəti hər hansı bir fəaliyyət maraq oyatdığı anda aşkara çıxır.

Baş həkim qeyd edir ki, yaş artdıqca həmin sindromun əlamətləri azalır, lakin bəzən bu, yetkin yaşlarda da müşahidə olunur və şəxsiyyət dəyişkənliyi ilə nəticələnir. Beləliklə, dediklərimi ümumiləşdirdikdə hiperdinamik pozuntuda bu əlamətlər olur: Məktəbdə hadisələri diqqətlə izləmək qabiliyyətinin olmaması, diqqətsizlik, deyilənlərə qulaq asmamaq, dərs tapşırıqlarını sonadək yerinə yetirməmək, oyunlarda təşkilatçılıq qabiliyyətinin olmaması, əşyaları tez-tez itirmək, əqli fəaliyyət tələb edən işləri sevməmək, xarici qıcıqlara diqqətin tez yayınması, unutqanlıq, tez-tez yerini dəyişmək, əlləri və ayaqları ilə narahat hərəkətlər etmək, həddən artıq hərəki aktivlik, başqalarının söhbətinə qeyri-adekvat qarışmaq və sair bu kimi əlamətlər aşkar olunur.

Hiperdinamik sindrom 7 yaşına qədər müşahidə olunduğundan uşaqlarda ilk məktəbə uyğunlaşma prosesinə mane olaraq lazımi səviyyədə təhsil almalarına imkan vermir. Buna görə də belə uşaqlar vaxtında müayinə olunmalı və müalicəyə cəlb edilməlidirlər. Bu zaman nəticə əldə olunur, gələcəkdə daha ağır patologiyaların yaranmasının qarşısı alınır.

Bildiyimiz kimi, bütün xəstəliklərin psixoloji yöndən də təsnifatı var. Bəs psixologiyada hiperaktivlik necə izah edilir, onun müalicəsində nələr məsləhət görülür? Sualları cavablandırması üçün mütəxəssis Sevinc Cabbarovaya müraciət etdik. O dedi:

– Ümumiyyətlə, uşaqlar aktiv olurlar. Bir yerdə oturmur, ard-arda müxtəlif suallar verir və onları maraqlandıran hər şey haqqında qaneedici cavab alana kimi biz böyüklərdən əl çəkmirlər. Bu, uşağın əqli inkişafının normal qaydada getdiyini göstərir. Lakin bəzi uşaqlarda bu hallar çox kəskin şəkildə özünü büruzə verir. Ona görə də elmdə ona "hiperaktivlik" adı verilib. Övladlarında hədsiz aktivlik müşahidə edən valideynlər sadə bir testlə şübhələrində yanılıb-yanılmadıqlarını yoxlaya bilərlər. Test çox sadədir və yalnız diqqətlə müşahidə aparmaq tələb edir. Belə ki, əgər övladınız hərəkətli gün keçirirsə, bu, normaldır. Yox, əgər gün ərzində güc tələb edən işlərlə məşğul olub yorulmağına baxmayaraq, yenə də özündən asılı olmayaraq, hərəkətdədirsə, deməli, belə halda övladınız hiperaktivdir. Əgər övladınız çox sual verirsə və cavabı diqqətlə, sakit halda dinləyirsə, bu, normaldır. Yox, əgər ünvanladığı sualların cavabına qulaq asmır, tez-tez sözünüzü kəsirsə, bu zaman hiperaktivdir. Əgər o, müvəqqəti narahatçılığı olduğu zamanlar istisna olmaqla, gün ərzində normal yatır və yemək yeyirsə, aktiv, əks hallarda isə hiperaktivdir. Aktiv uşaq hər yerdə aktiv deyil. Hiperaktiv uşaqlar yaşıdlarından fərqli olaraq hər yerdə – istər evdə, məktəbdə, istərsə də qonaq getdiyi hər hansısa bir evdə, cəmiyyət arasında öz aktivlikləri, nadinclikləri ilə seçilirlər. Aktiv uşaqlar aqressiv olurlar. Onların əlindən sevimli oyuncaqlarını aldıqda, yaxud da istədikləri yerə aparmadıqda onlar belə hallara aqressiv reaksiya verə, sizdən küsüb-inciyə bilərlər. Bunun əksi olaraq, hiperaktiv uşaqlar özləri heç yoxdan münaqişə yaradır, ətrafındakıları qıcıqlandıraraq onunla dalaşmasını istəyirlər.

Qeyd edək ki, övladları hiperaktiv olan valideynlər diqqətli olmalıdırlar. Bu cür uşaqlarla sərt danışaraq "bunu etmə", "ona dəymə" və sair kimi kəskin qadağalar qoymaq olmaz. Belə etdikdə onlar daha da qıcıqlanırlar. Bu, sırf şüuraltından asılı olan bir haldır. Belə ki, qadağa xarakterli bir sözü deyəndə şüuraltı olaraq onun əksini edir. Məsələn, "bunu etmə" desən, o, "et" olaraq qəbul edəcək. Bu, bəzən böyüklərdə də belədir. Yaxşı olar ki, belə qadağatipli sözləri pozitiv formada onlara ünvanlasınlar. Məsələn, "qaçma, yıxılarsan" əvəzinə "ehtiyatlı ol", yaxud da "özünü qoru" deyə bilərik.

Digər bir məsələ isə uşaqlarla vaxt keçirəndə, necə deyərlər, dünyaya onların gözüylə baxmaqdır. Məsələn, övladınız oyuncaqları ilə oynayır, yaxud da cizgi filmlərinə baxırsa, valideyn də ona qoşulmalı, onun etdiyini təkrarlamalıdır. Bu zaman, məsələn, oyuna müdaxilə etmək qəti şəkildə olmaz. Belə olan halda, övladınız sizin, hətta dediklərinizə belə, fikir verməyəcək. Amma yanına əyləşib, necə deyərlər, onun öz dünyasında yer almağı bacarsanız, bu zaman ona təsiriniz də daha effektli olacaq.

Hiperaktiv uşaqları cəzalandırmaq, təhqir etmək olmaz. Ancaq bəzi valideynlər uşaqları nadinclik etdiyi zaman səhvliyə yol verərək "səninlə bir də danışmayacağam", "sənin anan olmayacağam" kimi ifadələr işlədirlər. Bilmirlər ki, uşaqları sakitləşdirmək üçün bu, olduqca zərərli bir vasitədir. Valideynlər elə etməlidirlər ki, uşaqlar hər bir hərəkətinə görə özləri məsuliyyət daşısınlar. Onlar seçim qarşısında qalarkən düzgün olanı seçməyi bacarsınlar.

Sevinc Cabbarovanın sözlərinə görə, belə uşaqlar özlərində olan mənfi enerjini düzgün yönə sərf etməli, onlar üzərindəki gərginliyi atmalıdırlar. Bunun üçün hiperaktiv uşaqları müxtəlif aktiv idman növlərinə yönləndirərək həmin enerjini onlar üçün faydalı bir istiqamətdə dəyərləndirə bilərlər. Ev şəraitində isə plastilindən müxtəlif fiqurlar düzəltmək, rəsm çəkmək də effektli təsir gücünə malikdir.

Valideynlərin uşaqlardan daha çox şey istəməsi, ailədə olan problemlər də hiperaktiv uşaqlara mənfi təsir göstərir. Uşağın psixoloji halı valideynin psixoloji vəziyyəti ilə bilavasitə bağlıdır. Valideyn işə ilk olaraq özündən başlamalıdır. Təəssüflər olsun ki, bəzi valideynlər belə məsələlərə biganə yanaşırlar. Unutmaq olmaz ki, övladlarımız gələcəyin valideynləridir və onlar necə yetişəcəklərsə, öz övladlarını da o cür tərbiyə edəcəklər. Qısaca, bizim övladlarımıza qarşı laqeydliyimiz gələcək nəsillər üçün böyük problemlərin başlanğıcına çevrilə bilər. Buna görə də onlara zamanında lazımi diqqəti göstərərək elə kiçik yaşlarından ideal bir valideyn olmağın sirlərini praktik cəhətdən aşılaya bilərik.

**Fatma BABAYEVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 23 oktyabr 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15 faiz) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 2700 kvadratmetr torpaq sahəsində yerləşən 3 otaqlı, 128,4 kvadratmetr ümumi, 68,0 kvadratmetr yaşayış sahəsindən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Üstüpü kəndi | 33 000 | 28 050 | 1 650 |
| 2. | 0,2659 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 98,28 kvadratmetr yaşayış, 22,13 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Üstüpü kəndi | 31 000 | 26 350 | 1 550 |
| 3. | 0,2346 hektar torpaq sahəsində yerləşən 2 mərtəbəli, 5 otaqlı, 128,80 kvadratmetr yaşayış, 106,40 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Qaraqala kəndi | 21 000 | 17 850 | 1 050 |
| 4. | 0,0395 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 64,65 kvadratmetr yaşayış, 37,36 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Üstüpü kəndi | 16 000 | 13 600 | 800 |
| 5. | 0,2578 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 70,00 kvadratmetr yaşayış, 17,60 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Qaraqala kəndi | 14 000 | 11 900 | 700 |
| 6. | 894,3 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 76,44 kvadratmetr yaşayış, 5,76 kvadratmetr qeyri-yaşayış, 179,84 kvadrametr köməkçi sahədən ibarət 4 otaqlı fərdi yaşayış evi | Ordubad rayonu, Aşağı Əndəmic kəndi | 55 000 | - | 2 750 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 20 oktyabr 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*-Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*-ödəniləcək behin qəbzi;*

*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*-fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 23 oktyabr 2017-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Futbol üzrə muxtar respublika çempionatında yeni mövsümə start verilib



*Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri ilə razılaşdırılmış təqvim planına uyğun olaraq futbol üzrə XVI muxtar respublika çempionatına start verilib.*

Doqquz komandanın mübarizə apardığı çempionat iki dövrədən ibarət olmaqla keçirilir. İlk dövrəyə noyabr ayının sonlarında yekun vurulacaq. İkinci dövrənin oyunları isə gələn il fevral ayının 27-də başlayacaq və may ayının sonlarında başa çatacaq. Hər turda bir komanda istirahət edəcək.

Artıq çempionatda ilk iki tura yekun vurulub. Son 3 mövsümün çempionu "Araz-Naxçıvan" futbol komandası cari mövsümdə də iddialı olduğunu ilk iki turda qazandığı maksimum xalla sübut edib. Naxçıvan şəhər təmsilçisi "Arpaçay" və "Dübəndi" komandalarının qapısından, ümumilikdə, 10 cavabsız top keçirib. Yeni mövsümə "Babək" komandası da iddialı başlayıb. "Əlincə" (Culfa) komandası ilə ilk turu heç-heçə (1:1) başa vuran babəklilər ikinci turda "Sədərək" komandasını səfərdə büdrədib – 1:2.

Ötən mövsüm çempionatın ikincisi olan Şahbuzun "Batabat" komandası yeni futbol mövsümünə uğursuz başlayıb. Hər iki görüşdə məğlub olan şahbuzlular turnir cədvəlində xal qazanmayan iki komandadan biridir. Eynilə bu sözləri "Arpaçay" və Naxçıvan Dövlət Universitetinin komandaları haqqında da demək olar.

Cari mövsümdən əvvəl isə Futbol Federasiyası tərəfindən Naxçıvan Muxtar Respublika Stadionunda yeni hakimlər üçün ikihəftəlik seminar təşkil olunub. Seminarın keçirildiyi müddətdə hakimlərə yeni oyun qaydaları və müasir futbolda hakimlərin hansı qaydalara riayət edilməsi məsələləri şifahi və praktik şəkildə izah olunub. Cari mövsümdə keçirilən bütün oyunları yeni təyinat alan hakimlər briqadası idarə edib.

***Naxçıvan Muxtar Respublika Çempionatı, II turun nəticələri***

*"Batabat" (Şahbuz) - "Kəngərli" (Kəngərli) 2:5*

*"Sədərək" (Sədərək) - "Babək" (Babək) 1:2*

*"Araz-Naxçıvan" (Naxçıvan) - "Dübəndi" (Ordubad) 5:0*

*"Əlincə" (Culfa) - Naxçıvan Dövlət Universiteti 1:1*

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Araz-Naxçıvan | 2 | 2 | 0 | 0 | 10-0 | 6 |
| 2. | Babək | 2 | 1 | 1 | 0 | 3-2 | 4 |
| 3. | Sədərək | 2 | 1 | 0 | 1 | 5-4 | 3 |
| 4. | Kəngərli | 2 | 1 | 0 | 1 | 7-6 | 3 |
| 5. | Dübəndi | 2 | 1 | 0 | 1 | 3-6 | 3 |
| 6. | Əlincə | 2 | 0 | 2 | 0 | 2-2 | 2 |
| 7. | NDU | 1 | 0 | 1 | 0 | 1-1 | 1 |
| 8. | Batabat | 2 | 0 | 0 | 2 | 3-8 | 0 |
| 9. | Arpaçay | 1 | 0 | 0 | 1 | 0-5 | 0 |

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Eminova Fatma Hüseyn qızının adına olan $1635^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 115-də yaşayan Məmmədov Qadir Mikayıl oğluna məxsus qeyri-yaşayış sahəsinin 23 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 784